# Əcnəbilər üçün Bakı səhnəsi

## Şəhərimizin qonaqları paytaxt teatrlarına böyük maraq göstərirlər

**Bakıda keçirilən I Avropa Oyunları Azərbaycanın dünyada nüfuzunu yüksəldən böyük idman bayramı olmaqla yanaşı, ölkəmizin tanıtımı, mədəni irsimizin təbliği, eləcə də turizm sektorunun gələcək perspektivləri baxımdan müstəsna əhəmiyyət kəsb edir. İdman bayramına gələn qonaqlar yarışları izləməklə yanaşı, Bakının gözəllikləri, tarixi-mədəni məkanları ilə yaxından tanış olurlar.**



**Bu günlərdə ölkəmizə ilk dəfə gələn çoxlu sayda əcnəbi var ki, Azərbaycanı mədəni zənginliyi ilə seçilən qonaqpərvər ölkə kimi "kəşf" edirlər. Onların ölkəmizlə tanışlığının daha yaddaqalan olması üçün paytaxtın teatr-konsert müəssisələrində, muzey və qalereyalarında maraqlı mədəniyyət proqramları həyata keçirilir. Turistlər üçün həm paytaxtda, həm də regionlar üzrə müxtəlif turlar təklif edilir.**



I Avropa Oyunlarını izləmək üçün şəhərimizdə qonaq olan xarici ölkə nümayəndələri Azərbaycan **Dövlət Gənc Tamaşaçılar Teatrında** da olublar. Onlar teatrda xüsusi olaraq turistlər və qonaqlar üçün tərtib olunmuş M.F.Axundzadənin "Müsyo Jordan və dərviş Məstəli şah" və Ə.Haqverdiyevin "Pəri Cadu" tamaşalarını seyr ediblər. Bu barədə "Kaspi"-yə məlumat verən teatrın mətbuat katibi Amerika Birləşmiş Ştatlarından, Meksikadan, İtaliyadan, Türkiyədən, Çindən və Pakistandan gəlmiş turistlərin tamaşadan sonra təəssüratlarını bölüşərək, I Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi, şəhərimizin füsunkar gözəlliyi, insanların istiqanlılığı haqqında xoş sözlər söylədiklərini bildirdi: "Qonaqlar tamaşalardakı milli koloritə, aktyorların peşəkar ifasına, səslənən canlı muğam parçalarına heyran olduqlarını xüsusi qeyd etdilər".

İtaliyalı jurnalistlər və digər qonaqlar teatrın direktoru, əməkdar artist Mübariz Həmidovla söhbətlərində ölkəmiz haqqından təəssüratlarını bölüşərək, teatr binasının dizaynının yüksək zövqlə qurulduğunu da vurğulayıblar: "Şəhərinizin milli və müasir görkəmi bir çox Avropa ölkələrini geridə qoyub. Teatrınız, seyr etdiyimiz tamaşalar isə yalnız dünyanın ən aparıcı teatrları ilə müqayisə oluna bilər. Biz Bakıda olduğumuza və belə mədəniyyət ocağını ziyarət etdiyimizə görə özümüzü son dərəcə xoşbəxt sayırıq".

Qeyd edək ki, Gənc Tamaşaçılar Teatrında iyunun 13-də Uilyam Şekspirin "Romeo və Cülyetta", 14-də Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi oynanılıb. Tamaşaçılar iyunun 15-də bu teatrda Patri Patrik Züskindin "Kontrabas", Semuel Bekketin "Sözsüz" səhnə əsərlərini də izləyə biliblər.




Bundan başqa, 18 iyun saat 19.00-da Azərbaycan Dövlət Musiqili Teatrında J.B.Molyerin "Skapenin kələkləri" tamaşası nümayiş olunub. Teatrın mətbuat xidmətinin rəhbəri Samir Sədaqətoğlunun sözlərinə görə, tamaşanı I Avropa Oyunları ilə əlaqədar Azərbaycana gəlmiş bir sıra əcnəbi qonaqlar - Almaniyadan, Rusiya Federasiyasından və Ukraynadan olan turistlər izləyiblər. Rus dilində oynanılan səhnə əsəri xarici qonaqlara eyni zamanda ingilis dilində tərcümə sətirlər - qaçan titrlər vasitəsilə təqdim olunub. Tamaşa bitdikdən sonra qonaqlar əsərin quruluşçu-rejissoru, əməkdar incəsənət xadimi Əsgər Əsgərov və Musiqili Teatrın direktor müavini Hüseyn Hüseynovla görüşüblər. Səmimi şəraitdə keçən söhbət zamanı qonaqlar tamaşadan razı qaldıqlarını, təqribən iki saat ərzində çox böyük mənəvi zövq aldıqlarını bildiriblər. "Teatrınızın çox unikal və möhtəşəm binası var. Tamaşa da yüksək səviyyədə hazırlanıb. Tamaşanı izlədikcə bizə elə gəlirdi ki, sanki Avropanın ən inkişaf etmiş ölkələrindən birinin teatr salonundayıq. Hər şey super idi. Ümumiyyətlə, Azərbaycan son illərdə Avropada ən çox inkişaf etmiş ölkələrdən biridir. Elə təkcə I Avropa Oyunlarının açılış mərasimi bunun əyani subutudur", - deyə qonaqlar söyləyiblər.

Qeyd edək ki, tamaşada rolları əməkdar artist Boris Qrafkin, aktyorlar Emil Heydərov, Marina Litvinenko, Nadejda Povelisina, Kamil Osmanlı, Firuz Məmmədov, Əliməmməd Novruzov, Rauf Babayev, Yuliya Heydərova ifa edirlər.

İyunun 12-də **Akademik Milli Dram Teatrında** isə Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti-vəziri-xani-Lənkəran" əsəri əsasında səhnələşdirilən eyniadlı tamaşa sənətsevərlərin ixtiyarına verilib. Bu tamaşa xaricilərin xüsusi marağına səbəb olub. İyunun 13-də Hüseynbala Mirələmovun "Xəcalət", ertəsi gün xalq yazıçısı Elçinin "Şekspir", iyunun 16-da "Kitabi-Dədə Qorqud" eposu əsasında "İlahi oyun", iyunun 17-də isə Elçinin "Qatil" tamaşalarına baxış keçirilib. Həmin gün asudə vaxtını Rus Dram Teatrında keçirmək istəyənlər Nizami Gəncəvinin "Yeddi gözəl" poeması əsasında hazırlanan tamaşanı izləyiblər. Rus Dram Teatrında iyunun 13-də Uilyam Şekspirin "Yay gecəsində yuxu", 14-də İlyas Əfəndiyevin "Büllur sarayda" tamaşaları nümayiş olunub.



İyun ayında **Opera və Balet Teatrının** səhnəsində də Cakomo Puççininin "İl Tabarro" operasını izləyən qonaqlar klassik musiqi nümunəsindən zövq alıblar. Zövqünü baletə köklənmək istəyənlər isə iyunun 17-də Fərəc Qarayevin əsrarəngiz "Qobustan kölgələri" baletini Qobustanda açıq havada izləmək imkanı qazanıblar. Opera və Balet Teatrı da digər mədəniyyət müəssisələri kimi, iyun ayı ərzində dinamik iş rejimində çalışacaq. Teatrın repertuarında "Yeddi gözəl", "Kənd namusu", "Leyli və Məcnun", "İl tabarro", "Traviata", "Jizel" və digər tamaşalar mövcuddur.

Dənizkənarı Bulvar ərazisində yerləşən **Abdulla Şaiq adına Kukla Teatrına** üz tutan xarici qonaqlarımız da az deyil. Belə ki, teatrdan aldığımız məlumata görə, Kukla Teatrı gəzintiyə çıxan xarici qınaqların maraq dairəsindədir. Onlar daha çox Kukla Teatrının tarixi və repertuarında olan tamaşalarla maraqlanırlar.

Göründüyü kimi, şəhərimizin qonaqları təkcə Bakının füsunkarlığını görməklə kifayətlənmirlər, həmçinin mədəniyyət mərkəzlərimizi də nəzərdən keçirirlər. Bunlar, sözsüz ki, ölkəmizin mədəniyyət sahəsinin daha da inkişaf etdrilməsinə təkan verəcək. Məlumat üçün bildirək ki, I Avropa Oyunları ilə əlaqədar teatrlarda əcnəbi qonaqlar üçün nəzərdə tutulmuş tamaşaların nümayişi iyun ayının 29-dək davam edəcək.

**Xəyalə Rəis**

# "Azərbaycanda birgəyaşayış və multikulturalizm" kitabının müzakirəsi keçirilib





**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində araşdırmaçı-jurnalist Niyaz Niftiyevin "Azərbaycanda birgəyaşayış və multikulturalizm" kitabının müzakirəsi keçirilib. Mərkəzdən APA-ya verilən məlumata görə, tədbirin açılışında çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru, professor Azad Məmmədov Niyaz Niftiyevin müəllifi olduğu kitabın Azərbaycanın multikulturalizm siyasətinə töhfə olduğunu söyləyib.**

Tədbirin moderatoru, Prezident Administrasiyası millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri xidmətinin baş məsləhətçisi, professor Etibar Nəcəfov bildirib ki, müzakirənin məqsədi kitabla bağlı tədbirdə iştirak edən alimlərin maraqlı fikirlərini öyrənməkdir.

Qısa məruzə ilə çıxış edən müəllif Niyaz Niftiyev "Azərbaycanda birgəyaşayış və multikulturalizm" kitabının ön söz, giriş, nəticə, xülasə hissədən və 12 bölmədən ibarət olduğunu söyləyib. Əlavə edib ki, kitabda azlıq anlayışına həm əcnəbi, həm də yerli alimlərin baxışı verilib, multikulturalizm anlayışı bir neçə ölkə təcrübəsindən öyrənilib, azərbaycançılıq ideologiyasının hansı şəraitdə yaranması və bu ideologiyanın milli birliyin təminatında rolu barədə məlumat da əks olunub.

Müzakirələrdə çıxış edən Azərbaycan Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin baş məsləhətçisi Həcər Verdiyeva, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun şöbə müdiri, professor Sakit Hüseynov, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun şöbə müdiri, professor Əli Abbasov, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirov, Bakı Slavyan Universitetinin Multikulturalizm kafedrasının müdiri, dosent Aytən Qəhrəmanova və başqaları çıxış edərək kitabın müsbət məziyyətləri ilə yanaşı, irad və təkliflərini də bildiriblər.